

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 80 (23.492)

*28 may 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna səfərə gəliblər.

Dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Şamaxı şəhərində Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna ayrılan nəqliyyat vasitələri və xüsusi texnikalara baxıblar.

Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilən 2 nömrəli körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının həmin gün açılışları olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı şəhərində istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikilən 51 mənzilli binada olublar.

Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olublar.



# Müstəqilliyin bəhrəsi: inkişaf və tərəqqi dövrünü yaşayan Kəngərli

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Bizim qarşımızda duran əsas məqsəd, vəzifə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarətdir”.***

Ulu öndərimizin müəllifi olduğu dövlət müstəqilliyinin bəhrəsi qüdrətli Azərbaycandır. Bu gün ölkə Prezidentinin rəhbərliyi ilə dahi şəxsiyyətin ideyalarının həyata keçirilməsi müstəqilliyimizi və dövlətçiliyimizi daha da möhkəmləndirir. ***“Güclü dövlət, yüksək rifah”*** strategiyasına əsaslanan kompleks quruculuq tədbirləri, həyata keçirilən çoxşaxəli islahatlar Naxçıvan Muxtar Respublikasında hər bir yaşayış məntəqəsinin davamlı inkişafına səbəb olmuşdur.

Mayın 27-də – Respublika Günü ərəfəsində Kəngərli rayonunda yeni obyektlər istifadəyə verilmişdir.

# “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialı fəaliyyətə başlayıb

Mayın 27-də “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Azər Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada bank sisteminin inkişafı diqqətdə saxlanılır. 12 ilə yaxındır, Azərbaycanın yeganə regional bankı kimi fəaliyyət göstərən “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti muxtar respublika vətəndaşlarının, kiçik və orta sahibkarların etibarlı maliyyə dəstəkçisinə çevrilmişdir. Bank nağdsız ödənişlərin inkişafı üzrə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən elan edilmiş müsabiqələrdə Azərbaycan bankları arasında “Təmassız POS-terminal infrastrukturu üzrə lider bank” nominasiyasında birinci, “Təmassız ödəniş kartları üzrə lider bank” nominasiyası üzrə isə üçüncü yerə layiq görülmüşdür. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti muxtar respublikada kənd təsərrüfatı və biznesin inkişaf etdirilməsi üçün sərfəli kredit bazarını formalaşdırmağa çalışır. Bankın 1 may 2020-ci il tarixə kredit portfelinin həcmi 103 milyon 146 min manatdır ki, bunun da 59 milyon 327 min manatını muxtar respublikada kənd təsərrüfatı və real sektorda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə verilmiş kreditlər təşkil edir. Eyni zamanda əhalinin vaxt məhdudiyyəti olmadan məsafəli bank xidmətlərindən yararlanması üçün şərait yaradılmış və internet bank xidmətlərinin göstərilməsi təmin edilmişdir. Azər Məmmədov Naxçıvan Muxtar Respublikasında maliyyə sahəsində aparılan islahatlara, eləcə də bank sektorunun inkişafına göstərilən qayğıya görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bundan sonra da fəaliyyəti verilən tapşırıqlara uyğun quracaqlarına və əhaliyə keyfiyyətli bank xidmətləri göstərəcəklərinə söz vermişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialının istifadəyə verilməsi münasibətilə kollektivi və rayon sakinlərini təbrik edərək demişdir: “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti 2008-ci ildən fəaliyyət göstərir. Ötən dövrdə Kəngərli rayon filialı da daxil olmaqla, bankın 6 filialı və 1 mübadilə şöbəsi, eləcə də təsisçisi və səhmdarı olduğu “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Bank 40 bankomat, 50 ödəniş terminalı, 840 POS-terminaldan ibarət ödəniş infrastrukturuna malikdir. Ötən dövrdə bank mövcud imkanlardan istifadə edərək muxtar respublika bazarında uğurla fəaliyyət göstərmiş, əhali rəğbəti qazanmışdır.



Ali Məclisin Sədri bankın kollektivinə və bu işlərdə əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Hər bir bank fəaliyyət göstərdiyi yerin inkişafına və əhalinin güzəranının yaxşılaşmasına töhfə verməlidir. Bank bu məsələni daim əsas götürməli, fəaliyyətini təhlil etməli, kreditlərin aşağı faiz dərəcəsində olmasına çalışmalı, tələbatı nəzərə almalıdır. Fəaliyyətin bu cür qurulması həm bankın, həm də təsərrüfatların inkişafına imkan verəcəkdir. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin kollektivi əhalinin onlara olan etibarını bundan sonra da qoruyub saxlamalı, ölkəmizin şəffaf fəaliyyət göstərən bankları sırasında öz yerini qorumalıdır. Bankın istifadəyə verilməsi hər bir yerin əsas inkişaf göstəricisidir. Verilən kreditlərin əlçatan olması, əkinçiliyin, maldarlığın və digər təsərrüfat sahələrinin inkişafına yönəldilməsi bankın fəaliyyət istiqaməti olmalıdır. Kəngərli muxtar respublikanın yeni yaranan rayonudur. Rayonda kənd təsərrüfatının inkişafı əsas yer tutur. Digər bir tərəfdən məskunlaşma artır. Ona görə də Kəngərli rayonunda kənd təsərrüfatı və ipoteka kreditlərinin verilməsi diqqətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri demişdir: 28 May – Respublika Günü ərəfəsində “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialının istifadəyə verilməsi müstəqilliyimizin bəhrələrindəndir. Ümummilli liderimiz

*Ardı 2-ci səhifədə*

Heydər Əliyev deyirdi ki, ***"Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən çətindir".*** Ölkəmizdə Heydər Əliyev siyasətinin davam və inkişaf etdirilməsi müstəqilliyimizi qoruyub saxlamış, bütün sahələrin, eləcə də bank sisteminin inkişafını təmin etmişdir. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti də müstəqillik illərində yaranmış və inkişaf yolu keçmişdir.

Ali Məclisin Sədri 28 May – Respublika Günü münasibətilə tədbir iştirakçılarını və onların timsalında bütün muxtar respublika sakinlərini təbrik etmişdir.

Baxış zamanı bildirilmişdir ki, 2 mərtəbəli binanın birinci mərtəbəsində müştəri zalı, təhlükəsizlik, əməliyyat, kassa, qiymətlilərin saxlanma və server otaqları yerləşir. İkinci mərtəbədə isə müdir, kredit, arxiv və mütəxəssis otaqları, iclas zalı və mətbəx vardır. Filialda biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda kassa əməliyyatları və pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcəkdir.

Sonra bankın dövriyyədə olan kartları barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hazırda bankda 12 növ kartla müştərilərə xidmət göstərilir. "Debit Master" kartı təmassız ödəniş sisteminə malikdir. Bu kartla digər banklara məxsus bankomatlardan istifadə etdikdə əlavə xidmət haqqı tutulmur. Həmçinin alış-veriş zamanı və ictimai nəqliyyatlarda pin kod tələb olunmadan təmassız ödəniş etmək mümkündür. Lokal kart isə arıçılar üçün nəzərdə tutulmuşdur. Yəni arıçılıqla məşğul olanlar hər arı ailəsi üçün verilən dövlət dəstəyini bu kart vasitəsilə ala biləcəklər.

Bina istiliklə təchiz olunmuş, həyəti abadlaşdırılmış, işıqlandırma və suvarma sistemləri çəkilmişdir.

## Kəngərli rayonunda yeni içməli su və kanalizasiya sistemləri qurulur



Mayın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunda yeni içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması layihəsinə baxmışdır.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat vermişdir ki, layihə çərçivəsində Qıvraq qəsəbəsində və Şahtaxtı kəndində su və kanalizasiya şəbəkəsinin, Qarabağlar, Yurdçu, Xok və Qabıllı kəndlərində su şəbəkəsinin tikintisinin aparılması nəzərdə tutulmuşdur. Layihəyə əsasən 244,5 kilometr su və 87,1 kilometr kanalizasiya şəbəkələri tikiləcək, 5845 su və 1962 kanalizasiya birləşməsi aparılacaqdır. Bu günə qədər müxtəlif diametrli borularla 69,5 kilometr su və 9,9 kilometr kanalizasiya xəttinin tikintisi başa çatmış, 120 su birləşməsi aparılmışdır. Yeni qazılacaq 25 subartezian quyusunun hər birinin gücü saniyədə 8 litrdir. Bu günə qədər 4 quyu qazılaraq yuma işləri aparılmışdır.

Subartezian quyularından sutəmizləyici qurğuya qədər diametri 110 millimetrdən 355 millimetrə qədər olan borularla 6,4 kilometr uzunluğunda boru xətti çəkiləcək, su ozonla dezinfeksiya olunaraq yeni tikiləcək 2 xam su anbarına vurulacaqdır. Daha sonra sutəmizləyici qurğuda təmizlənən su hər birinin tutumu 7500 kubmetr olan 2 təmiz su anbarına yığılacaq və öz axını ilə şəbəkəyə ötürüləcəkdir. Təmiz su anbarlarının dəmir-beton işləri başa çatdırılmışdır. Qarabağlar kəndinə suyun verilməsi üçün təmiz su anbarından nasoslar vasitəsilə su kəndin yuxarı hissəsində tikiləcək 2 su anbarına vurulacaqdır. Təmiz su anbarı ilə həmin su anbarları arasındakı təzyiqli boru xəttinin 2,5 kilometrinin tikintisi başa çatdırılmışdır.

Kanalizasiya suları yeni tikiləcək çirkab sutəmizləyici qurğuda təmizlənəcəkdir.

Ali Məclisin Sədri layihə üzrə işlərin 2021-ci ildə başa çatdırılması və keyfiyyətə diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

## Şahtaxtı kəndindəki Şərq hamamı bərpa olunub



Muxtar respublikada tarixi abidələrin bərpası dəyərlərimizə və mədəni irsimizə sahiblik nümunəsi kimi böyük əhəmiyyət daşıyır. Ali Məclis Sədrinin tapşırığına əsasən muxtar respublikanın qədim yaşayış məntəqələrindən olan Şahtaxtı kəndindəki Şərq hamamı bərpa olunmuşdur.

Mayın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov aparılan bərpa işləri ilə maraqlanmışdır.

Tarixi abidələrin bərpası üzrə mütəxəssis, memar Arif Əzizov məlumat vermişdir ki, 2 günbəzli Şahtaxtı hamamı düzbucaqlı arxitektura quruluşuna malikdir. Hamamın günbəzləri eyniölçülü olub, diametri 5, xaricdən hündürlüyü isə 1,3 metrdir. Tavanda açılmış bacalar vasitəsilə işıqlandırılan hamam yarımyeraltı formada inşa edilmişdir ki, bu da istiliyin qorunmasına və su ilə təchizatın yaxşılaşmasına şərait yaratmışdır. Hamam xaricdən travertin daşlarla, daxili divarları, tağ və günbəzləri qədim növlü kərpiclə, binanın dam örtüyü və günbəzlərin üst qatı isə alüminium vərəqlərlə üzlənmişdir. Sahəsi 215 kvadratmetr olan hamamda qadın gözəllik salonu, dərzi, rəssam və fotoqraf otaqları ayrılmışdır. Yeni xidmət sahələrində 4 nəfər işlə təmin olunmuşdur. Arif Əzizov tarixi-mədəni irsimizin qorunub yaşadılması sahəsində görülən işlərə görə bərpaçılar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahtaxtı kəndindəki Şərq hamamının bərpa və yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Muxtar respublikada Şərq üslubunda tikilmiş 10-a yaxın tarixi hamam qeydiyyata alınmış, Ordubad və Naxçıvan şəhərlərindəki, Şərur rayonunun Yengicə kəndindəki qədim hamamlar bərpa olunmuşdur. Bu gün isə Şahtaxtı kəndindəki hamam yenidənqurmadan sonra istifadəyə verilir.

Ali Məclisin Sədri demişdir: Şahtaxtı kəndindəki Şərq hamamı uzun illər bu ərazidə yaşayan insanların sağlamlığına və təmizliyinə xidmət edib. Hamamın tarixi abidə kimi bərpası vaxtilə onu tikənlərin də xatirəsinin yad edilməsidir. Bu abidə xalqımızın mədəniyyətinin və təfəkkürünün göstəricisi olmaqla yanaşı, həm də muxtar respublikada bioqazla qızdırılan ilk hamam olmuşdur. Hamamı tikdirən İsa Sultan Şahtaxtinski Azərbaycanın qədim İrəvan şəhərində anadan olmasına baxmayaraq sonradan ailəsi Şahtaxı kəndinə köçmüşdür. O, Tiflisdə realnı gimnaziyanı bitirmiş, Sankt-Peterburqda təbiət elmləri üzrə təhsil almışdır. İsa Sultan Şahtaxtinski təbiət elmlərini dərindən bildiyi üçün bioqazla qızdırılan ilk hamamı da Şahtaxtı kəndində quraraq əhalinin istifadəsinə vermişdir. Ötən əsrin 80-ci illərinə qədər fəaliyyət göstərən hamam sonradan dağıntılara məruz qalmışdır. Lakin muxtar respublikada tarixi-mədəni irsin qorunması sahəsində görülən işlərin davamı olaraq hamam abidə kimi qeydiyyata alınmış və 2019-cu ildən etibarən bərpa olunmuşdur.



Ali Məclisin Sədri abidənin yenidən qurulmasında iştirak edən bütün bərpaçılara təşəkkür etmişdir.

Hamamda yaradılan xidmət sahəsində işlə təmin olunan rəssam Fikrət Babayev demişdir: Bu gün hər birimiz üçün tarixi və yaddaqalan gündür. Hər birimiz üçün qürurverici ki, muxtar respublikamızda tarixi abidələrə böyük dəyər verilir, onlar qorunub gələcək nəsillərə ötürülür. Bu tədbirləri kəndimizdə qədim hamamın bərpası ilə bir daha gördük. Digər tərəfdən rəssam kimi mənə də bu binada işləmək üçün şərait yaradılmışdır. İndiyədək işləmək üçün mənim ayrıca emalatxanam olmamışdır. Fikrət Babayev kənd sakinləri və kollektiv adından yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirmiş, qarşıdan gələn 28 May – Respublika Günü münasibətilə təbriklərini çatdırmışdır.

Abidənin ətrafı abadlaşdırılmış, müasir işıqlandırma sistemi quraşdırılmış, yola asfalt örtüyü verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*28 May Respublika Günüdür*

## Şərqin ilk demokratik respublikası

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilk demokratik respublikanın fəaliyyətə başlaması ilə nəinki xalqımızın, bütünlükdə, müsəlman Şərqinin tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlərboyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, həmin gün öz müstəqilliyinə qovuşdu. 1918-ci ilin fevralında yaradılmış Zaqafqaziya seymi həmin il may ayının 25-də dağıldıqdan sonra, mayın 27-də seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplaşdı. Fraksiya ölkəmizin idarə olunmasını öz üzərinə götürərək Azərbaycan Milli Şurasını yaratdı. Milli Şuranın mayın 28-də keçirilən tarixi iclasında qəbul edilən 6 maddədən ibarət İstiqlal Bəyannaməsi ilə Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Bəyannamədə bildirilirdi ki, Azərbaycan tamhüquqlu müstəqil dövlət, onun idarə forması isə xalq cümhuriyyətidir. Elə həmin gün də Milli Şuranın tapşırığı ilə Fətəli xan Xoyskinin başçılığı ilə 9 nəfərdən ibarət cümhuriyyətin ilk hökumət kabineti təşkil edilmişdir. Milli hökumət 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsini bağladıqdan sonra Osmanlı imperatorluğu Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət oldu.

Həmin dövrdə Bakı şəhəri Xalq Komissarları Sovetinin nəzarətində olduğu üçün 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçmüşdür. Bir gün sonra Gəncədə Milli Şura öz fəaliyyətini müvəqqəti olaraq dayandırmış və Müəssislər Məclisi çağırılanadək bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış ikinci hökumətə həvalə etmişdir. O zaman milli hökumətin qarşısında duran ən böyük vəzifə Bakını işğalçılardan azad etmək, bütün ölkə ərazisində Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini bərqərar etmək idi. Buna görə də milli ordu birlikləri yaratmaq ən zəruri addım idi və iyunun 26-da müsəlman hərbi korpusunun ayrıca Azərbaycan Korpusuna çevrilməsi ilə ölkəmizdə ilk Milli Ordu yaradılmasının əsası qoyulmuşdur. Təxminən, iki ayyarımlıq bir müddətdən sonra, 1918-ci il sentyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyətinin birləşmiş hərbi qüvvələrinin mübarizəsi sayəsində Bakı azad edilmiş, sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçmüşdür.

*Ardı 3-cü səhifədə*

Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına uyğun olaraq hökumət tərəfindən Müəssislər Məclisinin çağırılması üçün bir sıra tədbirlər həyata keçirilsə də, ölkədə yaranmış ağır ictimai-siyasi vəziyyət parlamentə seçkilər keçirməyi çətinləşdirirdi. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq ali hakimiyyət orqanı kimi "Azərbaycan Parlamentinin yaradılması haqqında" Qanun layihəsini hazırlamış və həmin il noyabrın 19-da bu qanunu qəbul etmişdir.

Milli Şura tərəfindən təşkil edilmiş parlamentin 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında təntənəli açılışı olmuşdur. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan Parlamenti davamlı olaraq fəaliyyət göstərdiyi 17 ay ərzində müstəqil dövlət quruculuğu istiqamətində misilsiz işlər görmüşdür. Şərqdə ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilmiş, parlamentin işində Azərbaycanın ziyalı və ictimai fəal qadınları iştirak etmişlər. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycan müstəqil dövlət kimi tanınmışdır. Xalq cümhuriyyəti fəaliyyət göstərdiyi dövrdə 20-dən çox dövlətlə diplomatik əlaqələr yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti çox çətin və mürəkkəb dövrdə fəaliyyət göstərmişdir. Həmin dövrdə taleyüklü məsələlərdən biri də ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etmək idi. Azərbaycanın qədim Zəngəzur, Qarabağ və Naxçıvan torpaqları əsassız erməni iddiaları və təcavüzü ilə üz-üzə qalmışdı. Lakin Naxçıvan əhalisi bu diyarın Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı və milli qüvvələrin səyi nəticəsində 1918-ci il noyabrın 18-də burada Araz-Türk Respublikası yaradılmışdır. Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Sürməli qəzalarını, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələri əhatə edirdi. Sahəsi 8,7 min kvadratkilometr, əhalisi isə 1 milyon nəfərə yaxın olan respublikanın paytaxtı Naxçıvan şəhəri idi. Araz-Türk Respublikası Naxçıvanın daşnak hücumlarından qorunmasında böyük rol oynadı. Eyni zamanda milli hökumət də Naxçıvanı qorumaq üçün imkan daxilində köməklik göstərir, siyasi dəstək verir, hərbi, iqtisadi və mədəni cəhətdən yardımlar edirdi. Naxçıvan məsələsi bir neçə dəfə Azərbaycan Parlamentində müzakirə edilmiş, erməni təcavüzünün qarşısını almaq üçün əməli tədbirlər görülmüş, Naxçıvanı Ermənistanın müvəqqəti idarəçili-



yinə vermək istəyən ingilis və amerikalılarla danışıqlar aparılmış, keskin etiraz bildirilmişdi. Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək bildirmişdir ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Naxçıvanın Azərbaycan ərazisi kimi qorunub saxlanması üçün bütün vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər.

Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatlarını və ailələrini böyük təhlükə ilə üz-üzə qoyaraq mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirərək demişdir: *"İgid naxçıvanlılar, şərurlular bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi gördən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."*

Beləliklə, ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət bəzi hallarda hökumətin öz məqsədlərinə tam çata bilməməsinə səbəb olsa da, naxçıvanlıların igidliyi və qəhrəmanlığı sayəsində bu qədim diyar Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Bu qısa tarixi dövr Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərmişdir. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi".***

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi, Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edərək özünün müstəqillik mübarizəsi üçün böyük potensial yaratdı və bunun məntiqi nəticəsi kimi ötən əsrin sonlarında Azərbaycan əsrin əvvəllərində itirdiyi müstəqilliyini yenidən bərpa etdi. Lakin bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə rastlaşdı. Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, Azərbaycanın müstəqil dövlət olmasını istəməyənlər "erməni məsələsi"ndən yetərincə istifadə etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***"Bütün tarix boyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir".***

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumuş və möhkəmləndirmişdir. Bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmiş ümummilli liderin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul olunmuşdur. Həmin qərarlara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda qaldırılmışdır. Dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, cümhuriyyətin xalqımızın azadlıq və müstəqillik arzularını daha da gücləndirdiyini bildirmişdir. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələblərindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir. Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn subyekti kimi sübut etmişdir ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin layaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ölkəmizdə təntənəli şəkildə qeyd olunmuş, ölkə Prezidentinin müvafiq sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı təsis edilmiş, dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə bir sıra şəxslər bu medalla təltif olunmuşdur.

Bu gün Azərbaycan iqtisadi, siyasi, hərbi gücünə görə artıq regionda lider mövqe tutmuş, müstəqilliyimizin verdiyi bəhrələr sayəsində ölkəmiz dünyada söz sahibi olan qüdrətli respublika kimi nüfuz qazanmışdır. Bütün bunlar ümummilli liderimizin siyasi xəttinin, müstəqil dövlətçilik ideyalarının bəhrəsidir. Ölkə Prezidentinin dediyi kimi: ***"1993-cü il, əslində, real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Azərbaycanda demokratik təsisatlar məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və möhkəmləndirilmişdir. 1993-2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır. Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edən bir dövr kimi tarixdə qalacaqdır. Biz bu gün öz fəaliyyətimizi o illərdə müəyyən edilmiş strategiya çərçivəsində aparırıq Azərbaycanı inkişaf etdiririk. Siyasi xətt dəyişməz olaraq qalır. Bu xəttin alternativi yoxdur. Ölkədə aparılan, dərinləşən siyasi və iqtisadi islahatlar bu gün Azərbaycanı çox güclü bir ölkə kimi, regional dövlət kimi artıq dünyaya təqdim edir".***

Azərbaycan Prezidenti cənab İlham Əliyev qüdrətli və müstəqil bir ölkənin dövlət başçısı kimi qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm təşəbbüsləri ilə dünya siyasət tarixinə öz imzasını atmaqdadır. Ölkə rəhbərinin 2020-ci ilin yanvarında Dünya İqtisadi Forumundakı iştirakı və çıxışı Azərbaycanda həyata keçirilən islahatların dünyanın aparıcı dövlətləri, iqtisadi-maliyyə qurumları tərəfindən yüksək qiymətləndirildiyini bir daha bəyan etdi. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü, Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü ölkəmizin qlobal səviyyədə beynəlxalq siyasi nüfuzunun daha da möhkəmləndirilməsini, dünyada cərəyan edən proseslərə də təsir gücünü bir daha təsdiqlədi. Təqdirəlayiq haldır ki, dünyanın öncül ölkələrinin başçıları da dövlətimizin apardığı daxili və xarici siyasəti yüksək qiymətləndirir, beynəlxalq səviyyəli tədbirlərdə çıxışları zamanı da Azərbaycanın mövqeyini daim dəstəkləyirlər.

*Ulu öndərimizin müəyyənləşdirdiyi siyasi xəttin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində qazanılan uğurlar, ölkəmizin inkişaf etməkdə olan ölkələr sırasında inamla irəliləməsi bir daha sübut edir ki, Azərbaycanın müstəqilliyi əbədi, daimi və dönməzdir.*

**"Şərq qapısı"**

# Türk dünyasını birləşdirən "Ümid" körpüsü

*Xalqımızın tarixi taleyinə qızıl hərflərlə yazılmış əlamətdar hadisələr çoxdur. 28 il bundan əvvəl, 1992-ci il may ayının 28-də isə daha bir əlamətdar hadisə yaşadıq. Həmin gün Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində "Ümid" körpüsü açıldı. Həmin tarix iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq və ən nəhayət, ağır blokada vəziyyətində olan Naxçıvanın yaşaması və inkişafı baxımından özündə bir çox mətləbləri birləşdirir. Bu körpü Türkiyə ilə Azərbaycanı birləşdirməklə Türk dünyasının coğrafi bütünlüyünü də təmin edir. Bu baxımdan, çətin ki, dünyanın başqa bir yerində mənəvi cəhətdən bu qədər dəyəri olan, istifadəyə verilməsi bayrama çevrilən, insanların içindəki ümidi, həsrəti, könül bağlılığını ifadə edən ikinci bir körpü olsun.*

28 il bundan öncə Naxçıvan tamamilə təklənmişdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi böhran dərinləşmişdi. Azərbaycanın ozamankı iqtidarı ölkədaxili vəziyyətə nəzarət edə bilmirdi. Belə bir dövrdə ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublikanı işğaldan qorudu.

Ulu öndər Heydər Əliyev Naxçıvana qayıdandan sonra Qars və Moskva müqavilələri yenidən siyasi müstəviyə çıxarılmış, böyük Atatürkün "Türk qapısı" adlandırdığı bu qədim yurd yerində "Bir millət, iki dövlət" şüarı reallığa çevrilmişdi. 1991-ci il oktyabrın 29-da Türkiyə ilə Naxçıvan arasında müvəqqəti körpü açılmış, əsas körpünün inşası sürətləndirilmişdi. Bu məsələ dahi rəhbərin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə gerçəkləşən səfəri çərçivəsində Ankarada imzalanmış əməkdaşlıq protokolunda da öz əksini tapmışdı. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir.



Körpünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın

Ardı 4-cü səhifədə

dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına başlanılmışdır. Eyni zamanda bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan vermiş, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyev körpünün açılışı zərurətini belə xarakterizə etmişdir: ***“Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum”.***

Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin bugünkü səviyyəsi, Türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlər şərh edilərkən Sədərək-Dilucu körpüsünün əhəmiyyəti xüsusi vurğulanır. Çünki Sədərək-Dilucu körpüsü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olmuşdur. Ötən 28 ildə qardaş ölkənin yaxın vilayətləri ilə muxtar respublika arasında iqtisadi-ticarət və humanitar əlaqələrin inkişafı davamlı xarakter almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi mərhələ olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə mövcud olan qarşılıqlı əlaqələr dinamik şəkildə inkişaf edir.

Naxçıvanın Türk dünyasının birlik və həmrəyliyində də xüsusi yeri olmuşdur. 2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə iştirak etmək üçün Naxçıvana gəlməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir. 2010-cu ilin oktyabr və 2018-ci ilin dekabr aylarında Azərbaycan-Türkiyə biznes-forumlarının Naxçıvanda keçirilməsi isə iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır.

Bu il fevralın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və həmin gün Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi.

İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmiryol nəqliyyat xəttinin və İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər, bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından da çox əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilir. Xüsusilə iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Türkiyə hökumətinin qəbul etdiyi tənzimləmə qərarına görə Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlər tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı verilməsi isə ikitərəfli münasibətlərin uğurlu inkişafının nəticəsidir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq da ilbəil genişləndirilir. 2013-cü ildən etibarən keçirilən, artıq ənənə halını alan birgə döyüş təlimləri isə uğurlu hərbi əməkdaşlığın unikal nümunəsinə çevrilib. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən ötən il iyun ayının 7-11-də Naxçıvanda keçirilən iki ölkənin silahlı qüvvələrinin “Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimləri bu ənənənin növbəti uğurlu mərhələsi idi.

Qeyd olunmalıdır ki, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişaf dinamikası, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının bölgəyə marağını artırır, Türkiyə ilə qarşılıqlı əlaqələr durmadan inkişaf edir. Artıq “Ümid” körpüsünün davamı olaraq Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının fəaliyyət göstərməsi və Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xəttinin inşası blokada vəziyyətində yaşayan Naxçıvanın qardaş ölkə ilə əlaqələrindəki tarixi rolunun bərpasına hesablanmış məqsədyönlü addımlardır.

Türkiyə ilə Naxçıvan arasında digər sahələrdə olduğu kimi, gömrük işi sahəsində də qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl iş aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Məhz bunun nəticəsidir ki, gömrük orqanlarımız 24 saat fəaliyyət göstərir. Hazırda hər iki tərəfdən gömrük infrastrukturunun modernləşdirilməsi istiqamətində görülən işlər qarşılıqlı münasibətlərə verilən önəmin ifadəsidir.

“Ümid” körpüsünün istifadəyə verilməsi Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində taleyüklü addım olmuşdur. Bu körpü təkcə Türkiyə ilə Azərbaycanı yox, eyni zamanda Türk dünyasını birləşdirən körpü kimi mühüm əhəmiyyətə malikdir. Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilən tədbirlərin böyük tarixi əhəmiyyətə malik olmasına diqqəti çəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Bizim bütün əlaqələrimiz qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsi, böyük Atatürkün və ümummilli lider Heydər Əliyevin izləri olan Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilir. Fəaliyyət göstərdiyi dövrlərdə Sədərək-Dilucu körpüsü bizi bir-birimizə daha sıx birləşdirmiş, hər iki tərəfdən insanların həyatının yaxşılaşmasına xidmət göstərmişdir”.***

**“Şərq qapısı”**

*Dövlət proqramı icra olunur*

## Gəlirli sahə olan arıçılığın inkişafına lazımi şərait yaradılıb

***Naxçıvan Muxtar Respublikasında arıçılıq qədim ənənələrə malik məşğuliyyət növlərindən biridir. Bu gün isə arıçılığın inkişafı yeni dövrə qədəm qoymuşdur. Dövlət tərəfindən həyata keçirilən aqrar islahatlarda arıçılığın inkişafına xüsusi önəm verilir. Bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” mühüm yer tutur. Dövlət proqramında arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin, qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, kənd əhalisinin məşğulluğunun artırılması, arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması kimi bir çox vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.***

Muxtar respublikada istehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq “Arıçılıq məhsulları – bal festivalı”nın keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olmuşdur. Dövlət proqramında müəyyən edilən tapşırıqlar 14 bənddən ibarətdir. 2020-ci ilin ötən dövründə 30,9 hektar sahədə nektar və çiçək tozu ilə zəngin olan meyvə tinglərindən ibarət yaşıllıqlar salınmış, Şahbuz rayonu ərazisində 449 hektarlıq “Qonaqgörməz” yay otlaq sahəsinin dincə qoyularaq arıçıların istifadəsinə verilməsi ilə bağlı işlər görülmüşdür.





“Arıçılıq məhsulları – bal festivalı” – 2019-cu il



Arıçılıq kənd təsərrüfatının ekoloji baxımından ən təhlükəsiz sahələrindən biridir. Muxtar respublikada arıçılığın tarixi kökləri və ənənələrinin olması yerli arı genofondunun formalaşmasına şərait yaratmışdır. Məhz dövlət proqramında nəzərdə tutulan tapşırıqlardan biri yerli arı genofondunun mühafizəsindən ibarətdir. Bu məqsədlə ötən dövrdə yerli arı cinsi olan “Sarı Qafqaz”ın Naxçıvan populyasiyasının qorunub saxlanılması məqsədilə 4 arıçılıq təsərrüfatının yaradılması başa çatdırılmışdır. 1 ana arı yetişdirmə təsərrüfatının, 4 arıçılıq təsərrüfatının yaradılması və 2 arıçılıq təsərrüfatının genişləndirilməsi işləri davam etdirilmişdir.

Arıçılıq məhsullarının qablaşdırılması və etiketləşdirilməsi onların keyfiyyətinin və qidalılıq dəyərinin yararlılıq müddətində təhlükəsiz saxlanmasını və istifadəsini təmin edir. Arıçılığın iqtisadi cəhətdən yüksək gəlirgətirən təsərrüfat növü olması bu sahədə emal və qablaşdırma müəssisələrinin yaradılmasını da zəruri edir. Proqramda bu məqsədlə müəyyən olunmuş tapşırığın icrası istiqamətində ötən dövrdə 4 təsərrüfata 26 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə, muxtar respublikada balın emalı, qablaşdırılması və mum vərəqi hazırlayan 5 istehsal müəssisəsi fəaliyyət göstərir.

Arı xəstəlikləri arı ailələrinin zəifləməsinə səbəb olan və nəticədə, bu sahədə məhsuldarlığı aşağı salan faktordur. 2020-ci ilin ötən dövründə arı xəstəliklərinin qarşısını almaq məqsədilə maarifləndirici tədbirlər davam etdirilmiş, sahibkarlara 7 adda dərman vasitələri paylanmışdır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə “Arıxanalara baytarlıq-sanitariya pasportunun verilməsi Qaydası və Forması” ləğv edilmişdir. Buna görə də baytarlıq-sanitariya pasportlarının verilməsinin, arıçılıq təsərrüfatlarının və arı ailələrinin uçotunun aparılmasının təşkili ilə bağlı tapşırığın icrası zamanı yalnız muxtar respublikada arıçılıqla məşğul olan sahibkarlara məxsus arı ailələri qeydiyyata alınmışdır.

Şübhəsiz ki, hər hansı iqtisadi sahədə peşəkar mütəxəssislərin mövcudluğu və müvafiq ixtisasa uyğun kadrların hazırlanması həmin sahənin inkişafını şərtləndirən başlıca amillərdəndir. Dövlət proqramında nəzərdə tutulan tapşırığa uyğun olaraq arıçılıq üzrə mütəxəssislərin hazırlanması davam etdirilmiş, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrinə arı xəstəliklərinin profilaktikası və müalicəsi ilə bağlı dərslər tədris olunmuşdur. Peşəkar arıçıların yetişdirilməsi üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzində, Şərur Texniki-Peşə və Sürücülük Məktəbində arıçılıq peşəsi üzrə təhsil alan müdavimlərə arıçılıqda son elmi nailiyyətlər, qabaqcıl təcrübələrin tətbiqi, arı ailələrinə qulluq qaydaları haqqında təlimlər keçirilmişdir.

Ötən dövrdə dövlət proqramının icrasına uyğun olaraq muxtar respublikada baytarlıq əczaxanalarının yaradılması ilə bağlı təbliğat işləri həyata keçirilmiş, balyığma mənbələri olan ağac və kolların qorunması, arı ailələrinin sığortalanması ilə bağlı maarifləndirmə işləri aparılmışdır. Ordubad rayonunun Vənənd, Kəngərli rayonunun Çalxanqala, Culfa rayonunun Əbrəqunus kəndlərində və Culfa şəhərində arıçılarla keçirilən görüşlərdə arı ailələrinə erkən yazda qulluq edilməsi ilə bağlı məlumatlar verilmişdir. Aparılan maarifləndirmə tədbirləri çərçivəsində “Yaz mövsümündə arılara qulluq”, “Arıçılıqda yem ehtiyatı bazasının yaxşılaşdırılması vacibdir”, “Bal arılarının zərərvericiləri və onlara qarşı mübarizə tədbirləri”, “Arıçıların yaddaş kitabçası”, “Həvəskar və peşəkar arıçılıqla məşğulolma, arı ailəsinin standart gücünün müəyyən edilməsi, arıçılıq təsərrüfatlarının uçota alınması və statistik hesabatların təqdim edilməsi qaydaları” adlı bukletlər dərc edilərək arıçılara paylanmışdır. Sahibkarların məlumatlandırılması məqsədilə kütləvi informasiya vasitələrinin də imkanlarından istifadə olunmuş, Naxçıvan Dövlət Televiziyasında “Arı ailələrində başvermə ehtimalı olan xəstəliklərə qarşı profilaktik olaraq baytarlıq tədbirlərinin aparılması və yaz mövsümünə hazırlıq” və “Arı ailələrinə erkən yazda zoobaytar qaydalarına uyğun qulluq edilməsinin əhəmiyyəti” adlı verilişlər hazırlanaraq efirə təqdim olunmuşdur. “Şərq qapısı” qəzeti və muxtar respublikanın digər mətbuat orqanlarında ənənəvi arıçılıq məhsulları – bal festivalları, ayrı-ayrı arıçılıq təsərrüfatları haqqında məqalələr, arı ailələrinin bəslənməsi və digər mövzularda maarifləndirici yazılar dərc olunmuşdur.

“2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə və arıçılıq məhsullarının ixracına şərait yaradır. Heç şübhəsiz ki, proqramın icrası nəticəsində bu sahədə daha böyük uğurlar qazanılacaq, yerli və ənənəvi arı cinsləri yetişdiriləcək, məhsul istehsalı artırılacaq, eyni zamanda bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaradılacaqdır.

**“Şərq qapısı”**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 385